

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 190 (23.101)

*6 oktyabr 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının şura yığıncağı keçirilib

İclasda cari ilin doqquz ayında görülmüş işlər və qarşıda duran vəzifələr barədə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov məruzə edib. Bildirilib ki, Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi həyatında və dövlətçilik ənənələrinin qorunmasında həlledici qüvvəyə malik, alternativi olmayan siyasi partiyadır. Bu partiya 1992-ci ildə ulu öndərimiz Heydər Əliyevin ətrafında sıx birləşən xalqın aparıcı və mütərəqqi qüvvələrinin istəyi ilə yaradılıb.

İsa Məmmədov qeyd edib ki, ümummilli liderin müəyyənləşdirdiyi siyasi xətt ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını inkişafın yeni mərhələsinə qovuşdurub. Bu siyasi yola sadiqliyin nəticəsidir ki, muxtar respublikada regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq abadlıq-quruculuq, yaşıllaşdırma işləri sürətlə aparılır, iqtisadiyyatımız yüksələn templə inkişaf etdirilir. Ulu öndərin təşəbbüsü ilə yaradılan və təşkil olunmasının 40 illiyini qeyd edən Babək rayonu da günbəgün inkişaf edir, çiçəklənir, həyata keçirilən uğurlu infrastruktur layihələri hesabına bu



yurd yerində əhalinin rahatlığı təmin olunur, məskunlaşma artır. Belə ki, cari ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə rayonun Nehrəm kəndində tarixi İmamzadə türbəsi təmir olunaraq istifadəyə verilib, yeni asfalt-beton zavod kompleksi qurulub, Şəkərabad kəndində isə içməli su və kanalizasiya xətləri çəkilib. Ötən günlərdə isə Babək qəsəbəsində yeni yaşayış binası, məscid və mərasim evi istifadəyə verilib. Hazırda rayonun ucqar dağ və sərhəd kəndləri olan Yuxarı və Aşağı Buzqovda kənd və xidmət mərkəzləri, məktəb binası tikilir, Buzqov çayı üzərindəki körpü təmir olunur, hər iki kəndə içməli su xətti çəkilir, yollar abadlaşdırılır. Bütün bu tədbirlər partiyamızın siyasi xəttinin bariz ifadəsidir.

Bildirilib ki, təşkilat öz işini Yeni Azərbaycan Partiyası V Qurultayının və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının V Konfransının qərarlarının yerinə yetirilməsi istiqamətində, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələblərinə uyğun qurub. Hesabat dövrü ərzində təsdiq olunmuş iş planına əsasən fəaliyyət davam etdirilib, ilk partiya təşkilatları ilə mütəmadi əlaqə saxlanılıb, onlara metodik köməkliklər göstərilib.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının əhatə etdiyi 56 ilk partiya təşkilatında 6837 nəfər partiya üzvündən 2330-u gənc, 2851-i isə qadındır. Ötən 9 ay ərzində partiya sıralarına 87 nəfər qəbul edilib. Bütövlükdə, hesabat dövrü ərzində Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında 3 şura, 9 idarə heyətinin yığıncağı keçirilib.

Sonra çıxışlar dinlənilib. Babək Rayon İcra Hakimiyyətinin başçısı, şura üzvü Rasim Hüseynov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxış edərək qarşıya qoyulmuş vəzifələrdən danışıblar.

**Muxtar RZAZADƏ**

## Pedaqoji təcrübənin başlanğıc konfransı

*Naxçıvan Dövlət Universitetində 2018-2019-cu tədris ilinin birinci semestrinə aid pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib.*

Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov pedaqoji təcrübənin yüksəkixtisaslı kadrların hazırlanıb gələcəkdə səmərəli fəaliyyət göstərmələrindəki rolundan bəhs edib.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov 5 oktyabr – Beynəlxalq Müəllimlər Günü münasibətilə bütün müəllimləri təbrik edib, onlara elmi fəaliyyətlərində uğurlar arzulayıb. Nazir Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün ölkə Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi təhsil strategiyasından danışıb.

Nazir bildirib ki, məhz həmin təhsil strategiyasının nəticəsi kimi son illər Naxçıvan Muxtar Respublikasının bütün ümumtəhsil məktəblərinin binaları yenidən tikilib və ya əsaslı şəkildə təmir olunub, lazımi avadanlıqlarla təchiz edilərək müəllim və şagirdlərin istifadəsinə verilib.

Universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov bildirib ki, ali təhsil ocağının qiyabi şöbəsində 7 şəhər, 4 rayon məktəbi olmaqla, 6 ixtisas üzrə, ümumilikdə, 99 tələbə artıq pedaqoji təcrübəyə başlayıb. Universitetin əyani şöbəsində təhsil alan 382 tələbə muxtar respublikanın müxtəlif məktəblərində pedaqoji təcrübədə olacaqlar. Prorektor kredit təhsil sistemi ilə əlaqədar tətbiq olunacaq yeniliklər, sənədləşmə işləri – təcrübə jurnallarının, məktəb rəhbərlərinin və təcrübəçilərin iş planlarının, icmal və gündəliklərin, hesabatların hazırlanması haqqında məlumat verib.

Diqqətə çatdırılıb ki, pedaqoji təcrübənin yekununda bolonya sisteminə uyğun olaraq 100 ballıq sistem üzrə qiymətləndirilmə aparılacaq.

**Səadət ƏLİYEVA**

## Beynəlxalq Müəllimlər Günü ilə bağlı tədbirlər olub

"Naxçıvan" Universitetinin konfrans zalında keçirilən tədbirdə ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev çıxış edərək müəllimləri bayram münasibətilə təbrik edib, ölkəmizdə bu şərəfli peşə sahiblərinə göstərilən qayğıdan danışıb. Bildirib ki, Azərbaycan xalqının milli təfəkküründə müəllim adı həmişə uca tutulub və onlara böyük ehtiram göstərilib. Azərbaycan müəllimləri də hər zaman ölkəmizin inkişafı və intibahı naminə fəaliyyət göstərib, xalqımızın maariflənməsi və tərəqqisi yolunda yorulmadan çalışıblar.

Vurğulanıb ki, ümummilli liderimiz Heydər Əliyev müəllim əməyini həmişə yüksək qiymətləndirib, elmin, təhsilin inkişafını, geniş dünyagörüşə malik, savadlı və intellektual gənc nəslin yetişdirilməsini dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirib. Ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də təhsilin inkişafını dövlətin qarşısında duran ümdə vəzifə kimi qəbul edərək müəllimlərə qayğıkeş münasibət göstərir. Dövlət



başçısının rəhbərliyi ilə ölkəmizdə ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Rektor diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasında öz peşəsini dərindən sevən peşəkar müəllim ordusu formalaşdırılıb. Cəmiyyətin maarifləndirilməsi, bilikli, vətənpərvər, çalışqan və sağlam gəncliyin yetişdirilməsi yolunda yorulmadan çalışan muxtar respublika müəllimlərinin əməyi layiqincə qiymətləndirilir.

Sonra tədbirin bədii hissəsi olub. Tədbir iştirakçıları universitetin tələbəsi Pünhan Məmmədlinin hazırladığı videoçarxa baxıblar.

**Nuray ƏSGƏROVA**

* * *



***Yeni Azərbaycan Partiyası Naxçıvan Müəllimlər İnstitutunun ərazi ilk partiya təşkilatı və institut ictimai tələbə təşkilatlarının iştirakı ilə Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar tədbir keçirilib.***

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbirdə ali təhsil ocağının rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyev həmişə milli təhsilimizin müasir tələblər səviyyəsində qurulmasına diqqətlə yanaşırdı. Dahi rəhbərin təhsil siyasətinin uğurlu bəhrələridir ki, bu gün milli təhsilimizin məzmunca təkmilləşdirilməsi, müasir dünya təcrübəsi və milli ənənələr əsasında inkişafı təmin edilib, Azərbaycançılıq ideologiyasını özündə əks etdirən tədris proqramları, çoxsaylı dərsliklər hazırlanıb, ayrı-ayrı sahələr və fənlər üzrə yeni standartlar tətbiq edilib.

Vurğulanıb ki, bu gün ölkəmizdə və muxtar respublikamızda təhsil quruculuğu uğurla həyata keçirilir. Naxçıvan Müəllimlər İnstitutunun ən müasir infrastrukturla, maddi-texniki baza ilə təchiz edilməsi bunu bir daha sübut edir. Bütün bunlar müəllimləri sevindirir, məsuliyyətimizi daha da artırır, bizi yeni uğurlara ruhlandırır.

Sonra çıxışlar olub.

Tədbirdə Beynəlxalq Müəllimlər Günü ilə bağlı videoçarx nümayiş etdirilib, tələbələrin ifasında bir-birindən maraqlı musiqilər səsləndirilib, rəqs nömrələri göstərilib, şeirlər oxunub.

Sonra tədbir iştirakçıları ali təhsil ocağının tələbələrinin əlamətdar günlə bağlı hazırladıqları sərgiyə baxıblar.

**✍ Nail ƏSGƏROV**

## Naxçıvanlı gənclər Macarıstanda təhsil alacaqlar

Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində 2018-2019-cu tədris ili üçün Macarıstan təhsil təqaüd proqramına seçimlər yekunlaşıb. Azərbaycanla Macarıstan arasında təhsil sahəsindəki uğurlu əməkdaşlığın nəticəsi olaraq 174 Azərbaycan vətəndaşı bu tədris ili üzrə Macarıstanın nüfuzlu universitetlərində təhsil almaq imkanı əldə edib. Onlardan 18-i doktorantura, 134-ü magistratura, 22-si isə bakalavriat səviyyələrində iqtisadiyyat, biznes və idarəetmə, mühəndislik, informasiya texnologiyaları, texnologiyalar, turizm, təbiət elmləri və davamlı inkişaf istiqaməti üzrə təhsil alacaqlar.

Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin tələbələri imtahandan uğurla keçərək Macarıstanda təhsil almaq imkanı qazanıblar. Belə ki, Naxçıvan Dövlət Universitetinin tələbəsi Elvin Nəcəfov Esterhazi Karoli Universitetində, "Naxçıvan" Universitetinin tələbəsi Pərviz Babayev isə Peç Universitetində Biznes və idarəetmə ixtisası üzrə magistr təhsili alacaqlar.

Məlumat üçün bildirək ki, Macarıstan universitetlərinin təqdim etdiyi diplomlar dünyada yüksək nüfuza malikdir. Təhsil keyfiyyəti çox yüksək olan Macarıstan Avropada əcnəbi tələbələrin ən çox seçdiyi ölkələrdəndir. Artıq Macarıstan dünyanın nüfuzlu elm-təhsil mərkəzlərindən birinə çevrilməkdədir. Bu ölkənin ali məktəblərinin dünyanın nüfuzlu universitetlərinin reytinq cədvəllərində yer alması da Macarıstanın inkişaf edən təhsil sisteminin üstünlüklərindən xəbər verir.

Macarıstanda tibbi təhsil də inkişaf edir. Hazırda bu ölkənin 4 ali təhsil müəssisəsi – Debrecen, Szeged, Peç və Semmelveis universitetləri ingiliscə tibbi təhsil verməkdədir. Bu universitetlərin tibbi təhsil binaları yerləşdikləri şəhərlərin xəstəxanası kimi fəaliyyət göstərir. Buna görə də yuxarı kurs tələbələri universitetin kampusunu tərk etmədən kliniki təcrübədən də keçə bilirlər.

Müasir dünyada təhsilin geniş inteqrasiya proseslərinə cəlb olunması gənclərin ölkəmizdəki elm və təhsil ocaqları ilə bərabər, xarici ölkələrdə kadr hazırlığı məsələsini də aktuallaşdırır. Nəticədə, xarici dilləri mükəmməl bilən, informasiya-kommunikasiya texnologiyalarını və ixtisasını dərindən mənimsəyən yüksəkixtisaslı mütəxəssislər yetişir. Bu isə davamlı inkişaf mərhələsinə qədəm qoyan ölkəmizdə ixtisaslı kadrlara olan tələbatın yüksək səviyyədə ödənilməsinə şərait yaradır. Ona görə də gənclərimizin dünyanın nüfuzlu ali təhsil müəssisələrində, xüsusilə də Macarıstan universitetlərində təhsil almaları mühüm əhəmiyyətə malikdir.

**"Şərq qapısı"**

## Tütün istehsalı artıb

Müasir dövrdə iqtisadiyyatın şaxələndirilməsi ilə idxaldan asılılığın azaldılması istiqamətində görülən işlərdən biri də tütünçülüyün inkişaf etdirilməsidir. Artıq ötən ildən muxtar respublikamızda yenidən tütün əkilməsinə başlanılıb. İlk olaraq Kəngərli rayonunda 8 hektar sahədə sınaq məqsədilə məhsuldar "Virciniya" və "Oriental" tütün sortları əkilib, 12 tona yaxın quru tütün istehsal olunub. "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyəti tütünü münasib qiymətlərlə qəbul edir. Bu da torpaq mülkiyyətçilərinin tütünçülüyə marağını artırıb. Cari ildə Kəngərli ilə yanaşı, Şərur və Babək rayonları ərazisində də, ümumilikdə, 41 hektar sahədə tütün əkilib və 50 tondan artıq məhsul götürülməsi proqnozlaşdırılır.

Dünən isə "Cahan Tabak Beynəlxalq" MMC-nin nəzdində yaradılmış Tütünyetişdirmə Mərkəzində Kəngərli rayonunda tütünçülüklə məşğul olan 22 torpaq mülkiyyətçisinə onların tədarük etdikləri məhsulun dəyəri ödənilib. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının aparat rəhbəri Azər Cəfərov bildirib ki, tütünçülərin bu sahədən yaxşı gəlir əldə etməsi üçün onlara hər cür köməklik göstərilir, tütün şitillərinin yetişdirilməsi, əkinlərə aqrotexniki qulluq göstərilməsi, şumlama, kağlama və digər işlərdə müasir texnikalardan istifadə edilir. O həmçinin qeyd edib ki, tütün əkini məqsədilə, ümumiyyətlə, 500 nəfərə yaxın yerli sakinin müqavilə ilə məşğulluğu təmin olunub. Tütünçülər isə gələcəkdə daha yaxşı çalışacaqlarını bildirib, yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq ediblər.

**Xəbərlər şöbəsi**

## Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatında aparıcı rola malikdir



*Ötən günlərdə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi tərəfindən 2018-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın sosial-iqtisadi inkişafının nəticələrini özündə əks etdirən növbəti statistikası açıqlandı. Statistikaya görə, əvvəlki dövrlərdə olduğu kimi, cari ilin ilk səkkiz ayında da ümumi daxili məhsul istehsalında ilk yeri sənaye sahəsi tutur.*

Belə ki, bu istehsalda sənayenin payı 726 milyon 450 min manat dəyərində olub. Kənd təsərrüfatı məhsullarının payı isə bu dövrdə 293 milyon 730 min 900 manat təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə, əgər sənaye istehsalının həcmi 1,5 faiz çox olubsa, kənd təsərrüfatı məhsullarında bu artım daha çoxdur. Statistikaya görə, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə aqrar məhsulların həcmi 3,8 faiz artıb.

Açıqlanan rəqəmlər Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının bir il ərzində ayrılıqda götürülmüş aylar üzrə dinamik inkişafını göstərir. Bu inkişafı şərtləndirən bir çox amillər var. Hər şeydən əvvəl, muxtar respublika tarixən aqrar sektora uyğunluğu ilə seçilir. Digər tərəfdən, sənaye məhsullarının istehsalında yeni infrastrukturun yaradılması və ya mövcud olanların genişləndirilməsi, eyni zamanda yeni texnoloji vasitələrdən istifadə başlanğıc üçün şərtdirsə, kənd təsərrüfatı sahəsində bunu nisbətən ardıcıl tətbiq etmək olar. Ancaq bu heç də o demək deyil ki, aqrar sektorda müasir texnoloji imkanlardan istifadə etmədən məhsul istehsalı həcmini artırmaq mümkündür. Burada əsas məsələ dövlətin kənd təsərrüfatı sahəsinə olan diqqəti, bu sahənin inkişafı üçün apardığı təşviqat tədbirləridir. İndiyədək muxtar respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində görülən işlər onu sübut edir ki, aqrar sektor dövlətimizin prioritet qəbul etdiyi strateji istiqamətlərdəndir. Bu sahənin inkişafı üçün müxtəlif dövlət proqramlarının qəbul edilməsi, sahibkarlar, xüsusilə torpaq mülkiyyətçiləri ilə keçirilən görüşlər, dövlət tərəfindən bu sahə ilə məşğul olanlara hərtərəfli yardımların göstərilməsi aqrar bölmənin inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri də indiyədək keçirilən müşavirələrdə kənd təsərrüfatı sahəsində qarşıya qoyulan vəzifələrin icrasının vacibliyini dəfələrlə vurğulamış, bu sahənin gələcək inkişafı daha çox müzakirə predmetinə çevrilmişdir.

Muxtar respublikanın təbii şəraiti kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün əlverişli olsa da, ölkənin digər bölgələri ilə müqayisədə su ehtiyatlarının azlığı vaxtilə bu sahənin inkişafına öz mənfi təsirini göstərib. Ötən illər ərzində problemin həlli üçün dövlət tərəfindən mühüm layihələr həyata keçirilib. Mövcud su anbarlarının əsaslı şəkildə yenidən qurulması, yeni sututarların yaradılması, əkin sahələrini suvarmaq üçün yeni su kanallarının çəkilməsi əkinçilikdə böyük nəticələrin əldə olunmasına şərait yaradıb. Digər tərəfdən, torpaq mülkiyyətçilərinin lazımi kənd təsərrüfatı texnikaları və avadanlıqları ilə təminatı da diqqət mərkəzində saxlanılıb. Cari il avqust ayının 1-nə olan məlumata görə, 2006-cı ildən indiyədək muxtar respublikamıza 2299 kənd təsərrüfatı texnikası və avadanlığı gətirilib. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən həmin texnika və avadanlıqlar güzəştli şərtlərlə sahibkarlara satılıb və ya lizinqə verilib. Bundan əlavə, tədarük edilən məhsulları birbaşa istehlakçılara satmaq üçün təşkil olunan kənd təsərrüfatı məhsulları yarmarkaları torpaq mülkiyyətçilərinin bu sahəyə marağını daha da artırmışdır.

Görülən bütün bu işlərin nəticəsidir ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı ildən-ilə daha da sürətlənir. Cari ilin yanvar-avqust aylarında muxtar respublikada diri çəkidə ət istehsalının 13 min 969 tona, süd istehsalının isə 67 min 148 tona çatması bu sahəyə göstərilən hərtərəfli qayğının ifadəsidir. Ötən ilin müvafiq dövrü ilə müqayisə etsək, ət istehsalında 5,9 faiz, süd istehsalında isə 1,7 faiz artım qeydə alınıb.

Bunu da vurğulamaq lazımdır ki, muxtar respublikada ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutsa da, sənaye istehsalında kənd təsərrüfatı məhsullarının emalının mühüm paya malik olması şübhəsizdir. Çünki bu gün istehsal olunan ərzaq məhsullarının hamısı yerli kənd təsərrüfatı məhsullarına və yaxud onun xammalına əsaslanır.

Aqrar sahənin inkişafında mühüm amillərdən biri də təsərrüfat subyektlərinin kredit resurslarına çıxışıdır. Həmin subyektlərin bu resurslara çıxış imkanlarının davamlı olaraq yaxşılaşdırılması ümumi kredit verilişlərinə öz təsirini göstərib. 2018-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 35 milyon 419 min 700 manat məbləğində kreditlərin verilməsi və bunun da 90 faizinə qədərini uzunmüddətli kreditlərin təşkil etməsi mülkiyyətçilər üçün əlverişli imkanlar yaradır.

Ümumilikdə isə belə nəticəyə gəlmək mümkündür ki, muxtar respublikamızda kənd təsərrüfatının inkişafı üçün atılan addımlar bu sahənin davamlı inkişafını təmin etməklə yanaşı, həm də onun yerli iqtisadiyyatda payını artırıb.

**✍ Səbuhi HƏSƏNOV**

## İstehsalatda bədbəxt hadisələrdən sığortalanmaq hər bir işçinin gələcəyinə zəmanətdir

*İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta hər bir işçinin sağlamlığına verilən dəyərlə ifadə olunur. Belə ki, hər kəsin öz sağlamlığına verdiyi dəyər qədər dövlətimiz üçün də hər bir Azərbaycan vətəndaşının həyat və sağlamlığının qorunması ən mühüm vəzifələrdəndir.*

Müxtəlif dərəcəli riskli istehsalat obyektlərində çalışan insanların sağlamlığının qorunması üçün lazım olan hər cür tədbir görülsə də, bir sıra fəaliyyət növlərində yaranan riskli hallar zamanı bəzən qaçınılması mümkün olmayan hadisələr baş verə bilər. Buna görə də istehsalatda müxtəlif bədbəxt hadisələr, habelə peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanı hər bir işçinin gələcəyinin zəmanəti kimi də qiymətləndirmək lazımdır.

Ölkəmizdə belə bir sığorta növü 11 may 2010-cu il tarixdə qəbul edilmiş “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununa əsasən aparılır. Həmin qanuna əsasən aparılan icbari sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığorta olunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişinin verilməsini nəzərdə tutur. Bu ödənişlər iş vaxtı əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maddi təminatına kömək edir. Bu sığortanın aparılmasında məqsəd göstərilən hallarda əmək qabiliyyəti itirilmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maraq və mənafelərinin müdafiə edilməsi, başqa sözlə, əməyin mühafizəsinin ən yüksək səviyyədə təşkilinə nail olmaqdır. Bu məqsədlə də 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirədə sığortanın digər növləri ilə bərabər, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın da təşkili və aparılması sahəsində konkret vəzifələr qarşıya qoyulub.

Mövcud qanun bu sığorta növündə sığortaçı, sığortalı, sığortaolunan və digər faydalanan şəxslərin hüquq və vəzifələrini müəyyənləşdirir. Qanuna əsasən işəgötürən hüquqi və ya fiziki şəxslərlə bağlanmış əmək müqaviləsi və ya mülki-hüquq müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında çalışanlar, fərdi qaydada sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş və işləyən şəxslər üçün istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən icbari qaydada sığorta olunmalıdırlar. Bundan əlavə, həmin qanuna görə istehsalat təcrübəsi keçən tələbə və şagirdlər, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb edilmiş şəxslər də bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar.

Bu sığorta növünə görə verilən ödənişlər isə xeyrinə icbari sığorta müqaviləsi bağlanılmış şəxsin əmək fəaliyyətini yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları zamanı həyata keçirilir. Bağlanmış müqaviləyə əsasən belə hallar baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə onun məruz qaldığı maddi itkilərin ödənilməsi məqsədilə sığorta məbləği ödənilir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, istehsalatda bədbəxt hadisələrin baş verməsi və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqi zamanı sığortaçı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olduğu, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığorta ödənişindən imtina hüququna malikdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi və ya ölüm halı baş verdikdə isə sığortaolunan və yaxud faydalanan şəxslər sığorta ödənişi almaqla maddi dəstək əldə edirlər. Bu zaman faydalanan şəxslər kimi istehsalatda sığorta hadisəsi nəticəsində zərərçəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsindəki əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş uşaqları və digər faydalanan insanlar nəzərdə tutulur.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta zamanı sığortahaqqı isə xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. Sığorta tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq müəyyən edilmiş peşə riskinin dərəcəsindən və sığorta olunanların kateqoriyalarından asılı olaraq 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

Göründüyü kimi, hər bir işçinin iş yerində baş verə biləcək bədbəxt hadisələrdən və peşə xəstəliklərindən peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsidir. Ona görə də bu sığortanın aparılması göstərilən hallarda əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maraq və mənafelərinin müdafiəsinə xidmət edir.

**✍ Əli CABBAROV**

*Muxtar respublikada daşınmaz əmlakın kadastrı və reyestrinin mütəmadi olaraq təkmilləşdirilməsi, eləcə də torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası 2018-ci ilin ötən dövründə diqqətdə saxlanılmışdır.*

## Muxtar respublikada 4030 daşınmaz əmlak obyekti qeydiyyata alınıb

Naxçıvan şəhəri və ətraf yaşayış məntəqələrində, Şərur rayonunun Düdəngə, Zeyvə, Danyeri, Tənənəm, Xələc, Ələkli, Arbatan, Cəlilkənd, Sərxanlı, Dəmirçi, Axura, Dizə, Həmzəli, Muğancıq-Müslüm, Oğlanqala və Aşağı Yaycı, Babək rayonunun Zeynəddin və Araz kəndlərində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmış, cari ilin 9 ayı ərzində 14 min 237 daşınmaz əmlak obyekti plana alınmışdır. Həmçinin Şərur rayonu üzrə 10, Babək rayonu üzrə 27, Culfa rayonu üzrə 2 bələdiyyənin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri, Şahbuz və Sədərək rayonları üzrə bütün bələdiyyələrin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritələri hazırlanmışdır.

Bu ilin yanvar-sentyabr aylarında muxtar respublika üzrə 4030 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, yeni yaranmış 494 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Komitənin səyyar xidmət qrupu tərəfindən isə muxtar respublika üzrə 69 yaşayış məntəqəsində 579 vətəndaşın müraciətinə baxılmışdır.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Melioratorlar ötən dövrü uğurla başa vurublar



Muxtar respublikada suvarmanın mütəşəkkil təşkili diqqət mərkəzindədir. 2018-ci ilin yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikası ərazisində su istifadəçilərinə 225 milyon kubmetr suvarma suyu verilmiş, təkrar suvarma da daxil olmaqla, 188 min 273 hektar torpaq sahəsi suvarılmışdır. Bu dövrdə 189 kilometr beton və torpaq kanal, 252 kilometr ara arxlar lildən təmizlənmiş, 62 kilometr yeni suvarma boru xətti, 9 kilometr yeni içməli su xətti çəkilmiş, 17 kilometr suvarma boru xətti, 46 kilometr içməli su xətti təmir-bərpa olunmuşdur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, melioratorlar payız suvarma mövsümünə tam hazırdırlar.

Bu ilin ötən dövründə Kəngərli rayonunun Böyükdüz kəndindəki 600 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi də davam etdirilmiş, müxtəlif diametrli borularla 48 min 977 metr boru xətti çəkilmişdir. “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində isə Şahbuz şəhər çirkab sutəmizləyici qurğuda tikinti işləri davam etdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

## Bu ilin ötən 9 ayında Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə 24 mindən artıq sərnişin daşınıb

Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti 2018-ci ilin 9 ayı ərzində muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Belə ki, daşımalarla məşğul olan hüquqi və fiziki şəxslərlə maarifləndirici söhbətlər aparılmış, avtobuslar və mikroavtobuslar texniki müayinədən keçirilmişdir. Sürücülər üçün Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində “Tibbi müayinə otağı” yaradılmışdır. Avtovağzalların payız-qış mövsümünə hazırlığı da diqqətdə saxlanılmış, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının hərəkət qrafiki təkmilləşdirilmişdir.

2018-ci ilin 9 ayında İran İslam Respublikasından keçməklə Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə Naxçıvandan Bakıya 11 min 944, Bakıdan Naxçıvana isə 12 min 678 sərnişin daşınmışdır. Avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınmasına, marşrut qrafikinə, xətdə olarkən avtobusların sürət həddinə nəzarət olunması üçün Naxtel-4G GPS monitorinq izləmə sistemindən istifadə edilmiş, sürücülərin həftədə bir dəfə qrup şəklində muzeylərə ekskursiyaları təşkil olunmuşdur.

Muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin edilmiş, 496 taksi əhaliyə xidmət göstərmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti**

# Naxçıvan payız fəslində də turistlər üçün cazibədar məkandır



*Adətən, insanlar yay vaxtı dincəlməyi sevirlər. Çünki yayın isti günlərində insanların psixoloji olaraq istirahət etmək ehtiyacı digər fəsillərə görə daha çox olur. Eyni zamanda yay fəslində məktəblilərin tətilə və valideynlərin məzuniyyətə çıxması istirahətə yollanmağı daha əlverişli edir ki, bu da yayda istirahət edənlərin sayının çoxalmasına gətirib çıxarır. Ancaq unutmaq olmaz ki, hər fəsildə istirahət etmək arzusunda olanlar da var. Hətta bəziləri üçün payız və yaxud qışda dincəlmək, müxtəlif turizm bölgələrinə səfər etmək yaya görə daha əlverişlidir. Əslində, "yay, payız, qış turizmi" deyə bir turizm növü yoxdur. İnsan marağı sərhədsiz olduğundan istirahət etmək də bütün fəsillərdə mümkündür. Sadəcə, bu tələbatı ödəyə bilən, belə imkanları yarada bilən ölkələr və yaxud bölgələr var.*

Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çoxqurşaqlı iqlimə malik olduğundan bizdə ilin bütün fəsillərində dincəlmək, istirahət etmək üçün şərait mövcuddur. Budur, artıq payız fəslinə qədəm qoymuşuq. Bu fəslin özünəməxsus gözəllikləri var. Naxçıvan da payızda öz gözəlliyinə bürünür. Bəs bu fəsildə yerli və xarici turistləri muxtar respublikamızda nə gözləyir? Ümumiyyətlə, bu qədim diyara payızda ayaq basan qonaqlar hansı imkanlardan yararlana bilərlər?

Bəri başdan deyək ki, hazırda muxtar respublikamızda turizmin inkişafı üçün lazımi şərait mövcuddur. Son illərdə bu sahədə mühüm infrastruktur işləri həyata keçirilib. İctimai sabitlik, yol-nəqliyyat, enerji, rabitə imkanlarının müasir tələblərə cavab verməsi, qonaqpərvərlik və sair turizmin hərtərəfli inkişafına geniş imkanlar açıb. Turizmin inkişafı ilə bağlı dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər ildən-ilə Naxçıvana gələn turistlərin sayına da öz təsirini göstərir. Muxtar respublikamıza turistlər, adətən, yay fəslində daha çox gəlsələr də, payızda da canlılıq yaşanır. Naxçıvanda payıza xas turizm növlərinin inkişafı üçün böyük potensial və bu potensialdan istifadə imkanları vardır.

Maraqlı bir nüansı xatırladım. İki il bundan əvvəl Yaxın Şərq ölkələrindən gəlmiş turistlərdən biri payızda Azərbaycana səfər etməyi məsləhət görərək yerli mətbuatda işıqlandırdığı yazıda belə çağırış etmişdi: "Payızda təbiət gözəlliyi axtaran şəxslər üçün Azərbaycan əlverişli ölkədir. Bu fəsildə Azərbaycanda bir gündə sakit, günəşli hava ilə yağışlı hava bir-birinə qarışır. Bu fəslin əvvəllərində Azərbaycanda hava yaydakı kimidir – yaşıl meşələr, parklar, bağlar. Yalnız oktyabrın sonlarından etibarən yarpaqların rəngi dəyişməyə başlayır. Siz Azərbaycanın ən mənzərəli kəndlərindən birinə səfər edə, yaxud şəhərdə qalıb payızın gözəlliyindən həzz ala bilərsiniz. Aydındır ki, əgər payızda Azərbaycana yollanmaq qərarına gəlsəniz, qonaqpərvərlik və xeyirxahlıq abuhavası ilə əhatə olunacaqsınız".

Bəli, bu fikirlərdən sonra bunu söyləmək zəruridir ki, ölkəmizin ən gözəl iqlim qurşaqları dairəsində yerləşən, əsrarəngiz təbiəti ilə hər kəsi məftun edən Naxçıvan bütün fəsillərdə olduğu kimi, payızda da öz gözəlliyi ilə hər kəsi valeh edir. Bəs bu fəsildə yerli və xarici turistləri muxtar respublikamızda nə gözləyir?

Birinci ondan başlayaq ki, Naxçıvanın bütün fəsillərdə olduğu kimi, payızda da havası çox təmiz və saf olur. Digər dənizkənarı turizm bölgələrindən fərqli olaraq burada havada təbii quruluq hakimdir. Aydın məsələdir ki, payız ilin ən çox yağışlı fəsillərindən olduğundan bəzən belə havalar nəmişlik və rütubəti də özü ilə bərabər gətirir. Naxçıvan kimi saf və quru havaya malik bölgələrdə isə bu, o qədər də hiss olunmur. Belə ki, iqlim qurşaqlarının yaratdığı dəyişiklik çox qısa müddətdə yağışlı havadan günəşli və ya küləkli hava şəraitinə keçidi təmin edir ki, bu da rütubətin aradan qalxmasına imkan verir. Belə hava şəraiti isə bəzi yaşlı və ya xəstə insanlar üçün çox vacibdir. Yəni Naxçıvana gələn turistlər digər fəsillərdə olduğu kimi, payızda da təmiz, sənaye kirliliyi olmayan bol oksigenli hava şəraiti ilə əhatə oluna bilərlər.

İkincisi, Naxçıvan dadlı-tamlı meyvə-tərəvəzlərin yetişdirildiyi diyar kimi özünü təsdiq edib. Burada bir haşiyə çıxaraq incə bir məqama toxunmaq istərdik. Əvvəllər turistlər bir yerə getdikdə, adətən, özlərinin gəzinti və ya alış-veriş planlarının üstündə daha çox dayanardılar və getdikləri yerləri də buna görə müəyyənləşdirərdilər. Qidalanmaq, necə deyərlər, arxa plana keçərdi. Son illərdə isə bütün dünyada turistlərin müəyyən ölkələri səyahət üçün seçərkən üzərində durduqları əsas mövzulardan biri də məhz getdiyi ölkələrin mətbəxi, onlar üçün daha yaxın olan qidalanmaq imkanlarının mövcudluğudur. Məsələyə praktik yanaşaq. Bu gün ölkəmizdən Çin, Cənubi Koreya, Yaponiya, müəyyən qədər Malayziya kimi ölkələrə gedənlərin əksəriyyəti üçün qidalanmaq bir nömrəli həllivacib məsələyə çevrilir. Son onillikdə həmin ölkələrdə turizmin inkişafı ilə bağlı əcnəbi mətbəxlərin təqdimatı genişlənsə də, bizim yerli insanlarımız üçün həmin mətbəxlərdən istifadə yenə də tam qaneedici təsir bağışlamır. Çünki mətbəxlərdə istifadə olunan məhsullar bizim yerli məhsullarla müqayisədə çox fərqlidir. Ancaq, əksinə, ölkəmizdə, eləcə də muxtar respublikamızda təbii Günəş işığında, hətta istixanalarda yetişdirilən kənd təsərrüfatı məhsulları dünyanın istənilən bölgəsindən gələn əcnəbilər üçün xoş təsir bağışlayır. Bu faktı Naxçıvana gələn istənilən əcnəbi turist etiraf edir. Necə deyərlər, təbiətdən gələn dad özünü hər zaman qoruyur. Elə buradan yola çıxaraq bildirək ki, payız fəsli Naxçıvanda müxtəlif meyvə-tərəvəzlərin yetişdiyi vaxtdır və yaxud yayda yetişdirilən məhsulların əksəriyyəti payızın sonunadək sahələrdən tədarük olunur. Bu fəsildə dağlarımızda müxtəlif giləmeyvələr, müalicəvi əhəmiyyətli bitkilər toplanır. Bu da xarici turistlərə səyahət çərçivəsində muxtar respublikamızın müxtəlif təbiət guşələrinə, o cümlədən kəndlərimizə, kənd təsərrüfatı məhsulları yetişdirilən əkin sahələrinə baş çəkmələrində əhəmiyyətli rol oynaya bilər. Turistlər bu kimi yerlərdə yerli məhsullarımızdan dada, satın ala, hətta yaxınlarına sovqat da götürə bilərlər. Xüsusilə ənənəvi olaraq hər ailədə yerli mürəbbələrin hazırlanma prosesi ilə tanışlıq və yaxud bu işlə məşğul olan istehsal müəssisələrində olmaq və həmin mürəbbələrdən dadmaq mətbəx mədəniyyəti ilə maraqlanmayan turistlərə belə, zövqlü damaq dadı yaşada bilər.

Təbii ki, turistlər üçün "yerindəcə tanış olmaq" tezisi hər zaman maraqlı olub. Bu mənada, bizim mətbəximizdə ənənəvi qışa hazırlıq prosesi (turşu qoymaq, kompot və mürəbbələr bişirmək, meyvə qurutmaq, pendir vurmaq, qovurma hazırlamaq və sair) ilə tanışlıq və yaxud bu prosesdə iştirak etməyin də ayrı bir təəssürat olduğunu indidən söyləmək mümkündür.

Payız fəslinin turistlər üçün fürsətlərindən bəhs edərkən son illərdə turizmdə yeni trend kimi ortaya çıxan maraqlı məqamlardan biri də milli toy ənənələrimizin turizmdə təbliğidir. Doğrudur, indiyədək əcnəbi turistlərin toylarımızda iştirakına bəzi hallarda rast gəlinsə də, bu da maraqlı təbliğat vasitələrindəndir. Məsələn, qonşu Türkiyə Respublikasında son dövrlərdə turizm turlarının rəhbərləri yerli inzibati qurumlarla əlaqə saxlayaraq əvvəlcədən hər hansı kənddə nə qədər toy olacağını müəyyənləşdirir. Sonra toy edən tərəflərin nümayəndələri ilə görüşərək bir neçə əcnəbinin həmin toyda iştirakı haqqında razılığını alır və bu dəvəti də tur kampaniyalarının gəzinti proqramına daxil edir. Beləliklə, xarici ölkədən gəlmiş turistlər toylarda qonaq kimi iştirak edir, milli adət-ənənələrlə tanış olur və ölkəsinə qayıtdıqdan sonra bu ənənələrin əsl təbliğatçısına çevrilirlər. Maraqlı burasıdır ki, bu cür toylarda iştirak etmək istəyən turistlərin çoxu bir ailənin üzvləri olur. Turistlərin kənd toylarına yönləndirilməsində məqsəd ondan ibarətdir ki, belə toylarda milli ənənələr daha zəngin olur və yaşadılır. Ata-babalarımızdan ən çox eşitdiyimiz məsləhət bu olub ki, payızda toy etsən, yaxşı olar. Bu da o mənaya gəlir ki, payız fəslində meyvə-tərəvəz bol və yeni olur, havaların sərin keçməsi iştirakçıların işinə yarayır, təsərrüfatla məşğul olanların işi nisbətən yüngülləşir və sair. Buradan da o nəticəyə gəlmək olur ki, payız fəslində Naxçıvana gəlmək istəyən turistlər toylarımızda iştirak edə, adət-ənənələrimizlə bağlı təəssüratlarını zənginləşdirə bilərlər. Əcnəbilərin toyda iştirakı yerli sakinlərə də toylarının maraqlı keçməsinə şərait yarada bilər.

Və nəhayət, tarixsevər turistlər üçün Naxçıvan hər zaman maraqlı diyar olub. Muxtar respublika ərazisindəki yerli, ölkə və dünya əhəmiyyətli abidələrlə əyani tanışlıq çoxları üçün maraqlıdır. Lakin quru kontinental isti iqlimə malik yay fəslində bu cür əhəmiyyətli abidələrlə yaxından tanış olmaq, bəlkə də, bəziləri üçün əlverişli olmaya bilər. Ancaq payız fəslində havaların mülayim keçməsi belə səyahətlərin vaxtını daha da uzatmağa imkan verir.

*Ümumiyyətlə, sadaladığımız və sadalamadığımız tərəfləri ilə payız fəsli Naxçıvana gələn qonaqlar üçün maraqlı imkanlar vəd edir. Bu dövrdə hər yerdə olduğu kimi, yerli otellərdə də qiymətlərin nisbətən ucuzlaşması turistlərə öz büdcələrinə qənaət etməyə şərait yaradır. Odur ki, ilin digər fəsillərində olduğu kimi, payız fəslində də Naxçıvana gəlmək, burada istirahət etmək hər kəs üçün maraqlı olar.*

✍ **Səbuhi HƏSƏNOV**

# Tarixi romanlar müəllifinin ev-muzeyi bu gün

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadi 1872-ci il martın 24-də Ordubad şəhərində dünyaya göz açıb. Onun atası Hacı Ağa müəllimliklə məşğul olub, bir çox şeirlər yazıb. "Fəqir" təxəllüsünü qəbul edib və bu adla da tanınıb.*





Adı ədəbiyyatımızın, mətbuatımızın inkişafı ilə sıx bağlı olan ədibin ev-muzeyi doğulub boya-başa çatdığı Ordubad şəhərində 1972-ci ildə yaradılıb. Bu günlərdə həmin muzeydə olduq. Öyrəndik ki, muzey 2010-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı əsasında əsaslı təmir və bərpa edilib. Muzey ekskursiya zalı və 3 otaqdan ibarətdir. Fondunda 720-dən çox eksponat saxlanılır, onlardan 500-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir.

Buradakı birinci otaq tarixi romanlar müəllifinin xatirə otağıdır. Həmin otaqda yazıçının Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Şamil Mustafayev tərəfindən yağlı boya ilə çəkilmiş portreti asılıb. Yazıçının həyat və yaradıcılığı haqqındakı məlumatların öz əksini tapdığı otaqdakı guşələrin birində ümummilli lider Heydər Əliyevin mədəniyyət və muzeylər haqqında dediyi müdrik sözlər, görkəmli dövlət xadiminin müxtəlif mədəniyyət obyektlərinin açılışında iştirakına dair fotolar və 22 may 1980-ci ildə muzeydə olarkən Ordubadi haqqında muzeyin rəy və təkliflər kitabına yazdığı sözlərin fotosurəti yer alıb. Muzeydə bu sənədin Azərbaycan dilində mətni də var. Vitrinin önündə isə Ordubadinin məşhur xanəndə Bülbül və dahi bəstəkar Üzeyir Hacıbəyov ilə birlikdə heykəli yerləşdirilib. Məlumat üçün bildirək ki, Üzeyir Hacıbəyovun 1937-ci ildə musiqi həyatı verdiyi "Koroğlu" operasının librettosunu Ordubadi yazıb, Bülbül isə Koroğlu rolunun əvəzsiz ifaçısı, həm də ədibin yaxın qonşusu və dostu olub.

Digər vitrində yazıçının 1886-cı ildə mollaxanada oxuyarkən istifadə etdiyi axund Şəhrəbanunun "Qurani-Kərim" kitabı və ədibin iki əlyazması, həmçinin "Molla Nəsrəddin" jurnalının 1906-cı il iyirmi ikinci nömrəsinin orijinal üz qabığı qoyulub. Soldakı guşədə yazıçının anadan olmasının 100 illiyinin keçirilməsi ilə bağlı sənədlər, Naxçıvan şəhərində yazıçının adına olan kitabxana binasının fotosu və Ordubadinin 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə latın əlifbası ilə buraxılan "Qılınc və qələm" əsərinin I və II cildləri, 2007-ci ildə çap olunmuş "Qanlı illər" kitabı sərgilənir. Divardan asılan xəritədə isə onun yaşadığı və fəaliyyət göstərdiyi yerlər göstərilib.

İkinci otaqda yazıçının ailəsinin istifadə etdiyi müxtəlif məişət əşyaları, geyim nümunələri, örtüklər və sair nümayiş olunur. Buradakı vitrinlərin birində Ordubadinin müxtəlif illərdə çap olunmuş əsərləri, o cümlədən onun 1964-cü ildə işıq üzü görən seçilmiş əsərlərinin 8 cildliyi qoyulub. Yazıçının rus və özbək dillərində dərc olunmuş əsərləri də burada yer alıb. İkinci vitrində Ordubadinin tədqiqatçılarının müxtəlif elmi jurnallarda çap olunmuş məqalələr və kitabları nümayiş etdirilir. Otağın divarlarına isə yazıçının müxtəlif əsərlərinə aid olan illüstrasiyalar vurulub.

Üçüncü otaq yazıçının iş və istirahət otağıdır. Buradakı eksponatların əksəriyyəti 1972-ci ildə muzey təşkil olunarkən onun Bakıdakı mənzilindən göndərilib. Divarlarda ədibin ailə üzvlərinin və yaxın dostlarının şəkilləri asılıb. Muzeyin ən maraqlı eksponatlarından biri ədibin gənc yaşlarında işlədiyi Ərbab Rzayevin ipək fabrikinin fotoşəklidir.

Ekspozisiya zalında nümayiş olunan yazıçının büstü heykəltəraş Xanlar Əhmədov tərəfindən düzəldilib. Divarda ədibin müxtəlif əsərlərinə çəkilən illüstrasiyalardan yağlı boya ilə işlənənlər Azərbaycan Respublikasının Xalq rəssamı Maral Rəhmanzadə tərəfindən, sulu boya ilə çəkilənlər isə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbi məzunlarının Ordubadinin 100 illik yubileyinə hədiyyələridir. Otaqdakı yazı stolunun arxasında yazıçı özünün ən məşhur əsərlərindən olan "Qılınc və qələm", "Gizli Bakı", "Döyüşən şəhər", "Qanlı illər", "Dumanlı Təbriz" əsərlərini yazıb.

Bu gün böyük ədibin ev-muzeyi yeniyetmə və gənclərin, ədəbiyyatsevərlərin ən çox üz tutduqları ünvanlardan biridir. Onlar burada ədibin irsi ilə yaxından tanış olur, yazıçının həyat və yaradıcılığı barədə dolğun məlumatlar əldə edirlər.

Görkəmli sənətkarın yaradıcılığı daim öz aktuallığı etibarilə bundan sonra da ədəbiyyatşünas alimlərimiz tərəfindən tədqiq ediləcək, əsərləri müasir yazıçılarımız üçün meyar olacaqdır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Culfa Rayon Mərkəzi Stadionu yenidən təmir olunur



Muxtar respublikamızın şəhər və rayonlarında 50-dən çox idman obyekti fəaliyyət göstərir. Yaradılan müasir idman infrastrukturu burada beynəlxalq yarışları yüksək səviyyədə keçirməyə imkan verir, idmançılarımız üçün yaradılan şərait onların beynəlxalq arenalarda uğur qazanmasına yol açır. Bu, muxtar respublikamızda idmana göstərilən qayğının nəticəsidir.

Naxçıvanda yeniləşən idman obyektlərindən biri də Culfa Rayon Mərkəzi Stadionudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən muxtar respublikanın Gənclər və İdman Nazirliyi tərəfindən rayon mərkəzi stadionunun yenidən qurularaq gənclərin istifadəsinə verilməsi muxtar respublikamızda idmanın inkişafına növbəti töhfə olacaq.

Stadion müasir standartlara cavab verə biləcək şəkildə təmir olunur, ətrafındakı çəpərlər boyanır. Həmçinin stadionun ətrafındakı bordürlər yenilənir, tamaşaçılar üçün nəzərdə tutulan səkilərə kilid daşlar döşənilir. Uzunluğu 100, eni isə 60 metr olan təbii ot örtüklü stadion ərazisində 80 nəfərlik oturacaqlar quraşdırılacaq. Bununla yanaşı, stadionun ərazisində voleybol və basketbol, mini-futbol meydançaları, ehtiyat oyunçular üçün kabinlər də inşa ediləcək. Eyni zamanda burada sadə idman qurğuları quraşdırılacaq, qaçış və uzunluğa tullanma yarışlarının keçirilməsi üçün zolaq salınacaq.

Qeyd edək ki, stadionun sulama sistemi də yenidən bərpa olunur və su nasosları yeniləri ilə əvəzlənir.

Stadionda muxtar respublika çempionatı üzrə oyunların, həm də rayon birinciliklərinin keçirilməsi nəzərdə tutulur.

✍ **Ceyhun MƏMMƏDOV**

## Qışa hazırlıqda milaxdan istifadə

*"Milax" termini üzümün qurudulması ilə bağlıdır. Hələ soyuducuların olmadığı dövrdə milaxlar, həmçinin armudun, heyvanın, narın qışa saxlanılması üçün də mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvanın üzüm bağlarında yetişən aborigen üzüm sortlarından – hənəqırna, ağaldərə, sarı aldərə, əsasən, milax üzümü hesab edilir. Bağlarda gecyetişən və qabığı qalın olan hənəqırna, südağı, eləcə də sarı aldərə üzüm sortları, əsasən, oktyabr ayında toplanılır, bir-iki gün günün altına sərilir, sonra xarab olan gilələr təmizlənir, milaxlara düzülərək tavandan asılır.*

Ta qədim zamanlardan üzümü qışda istifadə üçün asanda iki üsuldan istifadə edilirdi: əvvəla, evin tavanında ip, yaxud məftil çəkilir, üzüm salxımları düzülərək asılırdı. Milax çoxlu qol-qanadı olan ağac parçasıdır. Ənənəvi olaraq milax, əsasən, at pıtrağı (xalq arasında buna qaraxot da deyirlər) bitkisindən hazırlanırdı. Həyətyanı sahələrdə alaq kimi bitən, enliyarpaqlı bu bitkinin hündürlüyü bir metrdən artıq olur. Yaxşı inkişaf edən, qarşı-qarşıya olan yan budaqları vardır. Bitki quruyan zaman yüngül olmaqla yanaşı, budaqları qırılmağa qarşı davamlıdır. O quruyan zaman dibdən vurulur, budaqları 20-40 santimetr olmaqla, ucları kəsilir. Asmaq üçün baş hissəsində ipdən ilgək düzəldilir. Qaraxot olmadıqda şaxələnmiş budaqları olan ağaclardan istifadə edilirdi. Həmin milaxlar qaraxotdan düzəldilənə nisbətən daha ağır olurdu.

Milaxlar təsərrüfat damlarında (buna "əl damı" da deyirdilər) asılırdı. Əslində, əksər ailələrdə yardımçı binalar olmadığı üçün milaxlar elə evin tavanından asılırdı. Foklorumuzda Molla Nəsrəddinlə əlaqəli bir lətifə də vardır: "Mollanın evinə üzlü bir qonaq gəlir. Yeyib-içdikdən sonra yatmağa uzanan qonağın gözü tavandan asılmış milaxa sataşır. Mollaya eşitdirmək üçün qonaq oxumağa başlayır: "Bizim yerlər, bizim yerlər, yatanda üzüm yeyərlər". Molla isə üzlü qonağa cavab vermək üçün "Bizdə elə adət yoxdur. Saxlayıb gündüz yeyərlər", – deyir. Bu məsəl göstərir ki, həqiqətən, əksər ailələr yaşadıqları otaqlara milax asardılar.

Milaxda asılan üzüm Novruz bayramına qədər təravətli qala bilirdi. Armud, heyva, nar isə saplaqlarından ip ilə bağlanır, ya da hava keçirən torbaya yığılıb asılardı. Almanı isə əsasən, taxılın (arpa, buğda) içərisinə qoyub saxlayardılar. Bir folklor nümunəsi də bunu təsdiq edir: "Almanı atdım xarala, qaldı saralasarala".

Milaxların yaşayış evinin tavanından asılması təsadüfi deyildir. Həmin dövrün tikililəri də buna uyğun idi. Belə ki, o dövrdə Naxçıvan kəndlərində evlər bir qayda olaraq düzünə tikilmiş, biri "qəhvəxana" adlanan iki otaqdan ibarət olardı. Orta otaqda olan qəhvəxanadan yan otaqlara qapı açılardı. Bura həm də dəhliz, salon, mətbəx kimi istifadə edilərdi. Yağışlı havalarda ayaqqabılar qəhvəxanada çıxarılar, ərzaq, mətbəx qab-qacağı burada saxlanılar, neftlə işləyən "kerosinka"da xörək, çay hazırlanırdı. Evlərin bünövrəsi daşla, üst hissəsi ya çiy kərpiclə, ya da möhrə ilə hörülərdi. Möhrə divarlar zəlzələyə daha çox davamlı olurdu. Damın üstünə tir atılar, tirlərin üzərinə pərdi, yəni qabığı soyulmuş, iki bölünmüş kiçik qolçalar düzülərdi. Pərdi düzüldükdən sonra üzərinə qamış sərər, üstünə mor – ayaqlanıb yetişdirilməmiş palçıq verərdilər. Mor qamışın üstünə verildikdən sonra torpaq səpib ayaqlayırdılar. Binanın divarlarını və üstünü saman qarışdırılmış palçıqla suvayardılar. Həm otaqlarda, həm də salonda divarlarda taxçalar düzəldilər, evin əşyaları taxçalara yığılardı. Həmin evlərdə saxlanılan milaxlardakı üzümlər daha təravətli qalırdı.



Göründüyü kimi, etnoqrafiyamızda üzümün qurudulması zamanı xüsusi vasitələrdən istifadə olunub. Bir məqamı da qeyd edək ki, bu gün muxtar respublikanın Culfa rayonunda "Milax" adlı yaşayış məntəqəsi də var. Ehtimal olunur ki, sözün etimologiyası həm yuxarıda qeyd olunan kimi üzümün qurudulması, həm də yaxınlıqdan keçən Əlincə çayının mil, yəni düzünə axması ilə əlaqədardır.

Bu gün Naxçıvanda üzümçülüyün ənənəvi şöhrəti özünə qaytarılır. Hər il muxtar respublikanın rayonlarında yeni üzümçülük təsərrüfatları yaradılır. Soyuducu anbarların inşa olunması, hər fəsildə təzə üzüm yeməyə imkan versə də, üzümün qurudulması ənənəsi bu və ya başqa üsullarla bu gün də yaşadılır. Çünki milax üzümü özünün dad-tamı ilə digərlərindən seçilir.

**Zaleh NOVRUZOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin sentyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | 72620 | 7486 | 7500 | 100,2 |
| 2. | Şahbuz rayonu | 222859 | 25809 | 25853 | 100,2 |
| 3. | Ordubad rayonu | 390964 | 42286 | 42354 | 100,2 |
| 4. | Culfa rayonu | 308484 | 33856 | 33908 | 100,2 |
| 5. | Kəngərli rayonu | 264264 | 28689 | 28723 | 100,1 |
| 6. | Şərur rayonu | 685820 | 72942 | 72983 | 100,1 |
| 7. | Babək rayonu | 651904 | 76728 | 76745 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 915276 | 108356 | 108358 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 7618188 | 1077929 | 1119071 | 103,8 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | **11130379** | **1474081** | **1515495** | **102,8** |

*Naxçıvan şəhərindəki Saat meydanında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə "Oxunması zəruri olan kitablar"la bağlı tədbirlərin davamı olaraq "Kitablar tozlanmasın" devizi altında "Kitab qoy, kitab götür" layihəsinin təbliğat kampaniyası keçirilib.*

## "Kitab qoy, kitab götür" layihəsinin təbliğat kampaniyası keçirilib



Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli çıxış edərək muxtar respublikada həyata keçirilən gənclər siyasəti, həmçinin gənclərə göstərilən diqqət və qayğıdan, eyni zamanda keçirilən kampaniyanın mahiyyəti haqqında geniş məlumat verib.

Bildirilib ki, layihənin keçirilməsində məqsəd gənc nəsildə vətənpərvərlik, tarixə, milli köklərə bağlılığın formalaşdırılması, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşünün zənginləşdirilməsi, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərinin, mütaliə vərdişlərinin aşılanması, intellektual səviyyələrinin yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkil edilməsidir.

Qeyd olunub ki, "Kitablar tozlanmasın" devizi altında "Kitab qoy, kitab götür" layihəsinə 20 iyul 2018-ci il tarixdən Naxçıvan şəhərində yerləşən "Zirvə" kitab evində start verilib. Bu günədək layihədə 80 nəfər iştirak edib.

Təbliğat kampaniyasında "Oxunması zəruri olan kitablar", həmçinin Azərbaycan və dünya ədəbiyyatı nümunələrinin yer aldığı 100 bədii kitab gənclərə təqdim edilib.

Kampaniyada iştirak edən gənclər özləri ilə gətirdikləri kitabları yeni kitablarla dəyişdiriblər. 50 nəfər gəncin iştirak etdiyi kampaniya günün sonunadək Saat meydanında davam edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** İşçilərin ixtisarı zamanı işdə saxlanmağa üstünlüyü olan şəxslər kimlərdir?*

**Cavab:** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 70-ci maddəsinə əsasən işçilərin sayının və ya ştatların ixtisar edilməsi işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi əsaslarından biridir.

İşçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən işdə saxlanmağa üstünlüyü müəyyən edən əsas meyar qismində işçinin yüksəkixtisaslı (peşə) və peşəkarlıq səviyyəsi nəzərdə tutulur. Belə ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 78-ci maddəsində qeyd olunur ki, müvafiq hallarda işçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən müəyyən vəzifələr üzrə əmək funksiyasının icrası üçün tələb olunan ixtisasın (peşənin) və peşəkarlıq səviyyəsinin daha yüksəyinə malik olan işçilər işdə saxlanılır.

Bu meyarların müəyyən olunması müxtəlif vəzifələr üzrə əmək funksiyasının icrası üçün tələb olunan ixtisasın (peşənin) və peşəkarlıq səviyyəsinin daha yüksəyinə malik olan işçilərlə əmək münasibətləri saxlamağa imkan verir.

Həmin maddəyə əsasən işçinin peşəkarlıq səviyyəsini qiymətləndirmək hüququ işəgötürənə məxsusdur.

***Sual:** İxtisasları və peşəkarlıq səviyyələri eyni olan iki işçi arasında seçim hansı meyarlar əsasında aparılmalıdır?*

**Cavab:** Bu suala Azərbaycan Respublikası Əmək Məcəlləsinin 78-ci maddəsinin 2-ci hissəsində aydınlıq gətirilir. Həmin maddəyə əsasən işəgötürən ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda şəhid ailəsinin üzvlərinin, müharibə iştirakçılarının, əsgər və zabitlərin arvadının (ərinin), öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanların, həmin müəssisədə əmək şikəstliyi almış və ya peşə xəstəliyinə tutulmuşların, xüsusi məcburi köçkün, onlara bərabər tutulan şəxs və qaçqın statusu olan şəxslərin, kollektiv müqavilələrdə və ya əmək müqavilələrində nəzərdə tutulan digər şəxslərin işdə saxlanmasına üstünlük verir.

Qeyd etmək lazımdır ki, dövlət qulluqçularının sayının və ya ştatlarının ixtisar edilməsi ilə bağlı məsələlər isə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. Belə ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-cü maddəsində dövlət qulluqçularının sayının və ya ştatlarının ixtisar edilməsi dövlət qulluğuna xitam verilməsi əsaslarından biri kimi təsbit olunmuşdur.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 5-ci maddəsinə əsasən Azərbaycan Respublikası Əmək Məcəlləsi dövlət qulluqçularına, habelə prokurorluq, polis və digər hüquq-mühafizə orqanlarının qulluqçularına onların hüquqi statusunu tənzimləyən normativ-hüquqi aktlarla müəyyən olunmuş xüsusiyyətlər nəzərə alınmaqla şamil edilir. Bu normativ-hüquqi aktlarda həmin qulluqçuların əmək, sosial və iqtisadi hüquqları bütünlüklə əhatə olunmayıbsa, bu məcəllədə nəzərdə tutulmuş müvafiq normalar onlara tətbiq edilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 8, mənzil 35-də yaşamış Fətullayeva Arifə Qurban qızının adına olan 9267 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktorun müavini: RAUF ƏLİYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 729